# Musiqiyə bükülmüş şeirlər

(əvvəli ötən sayımızda)

Müğənni və bəstəkar Polad Bülbüloğlu Fikrət Qocanın on bir şeirinə musiqi yazmışdır. Onlardan "Azərbaycan", "Doymadım sözlərindən", "Bir baxmısan, bir də bax", "Dilin can incidəndi", "Elçilər", "Gəl, ey səhər" və başqaları vardır.

Müğənni və bəstəkar Polad Bülbüloğlu şairin sözlərinə bəstələdiyi bütün mahnıların demək olar ki, əksəriyyətini özü ifa edərək dinləyicilərə sevdirə bilmişdir. Onun bu mahnıları Azərbaycan musiqisinin bəzəyi sayılır.

**Qoy mən yenə söhbət açım ilk baharımdan,**
**Nəğməm ilə bir də keçim öz diyarımdan.**
**Bol bəhrəli Muğan düzü, Mil düzü, Şirvan düzü,**
**Gəl, gəl deyir şən Azərbaycan.**

Və:

**Doymadım sözlərindən,**
**O şirin sözlərindən.**
**Bilsəydim ayrılıqdı,**
**Öpərdim gözlərindən.**

Və:

**Bir çiçəklə yaz olmaz,**
**Bir baxmısan, bir də bax.**
**Sevinc belə az olmaz.**
**Bir baxmısan, bir də bax.**

Və:

**Dişlərin incidəndir,**
**Dürdəndir, incidəndir.**
**Özün əcəb gözəlsən,**
**Dilin can incidəndir.**

Və yaxud:

**O gözlər kimi**
**Hər tərəf qara.**
**Bu yollar səni**
**Aparır hara?**

Bəstəkar Faiq Sücəddinov şairin "Mənim Vətənim", "Heyif ki" və "Özündən razısan" şeirlərinə musiqi yazmışdır:

**Gendən baxıb gülən yar,**
**Gülə-gülə gələn yar.**
**Niyə bilmir qədrimi**
**Öz qədrini bilən yar.**

Nəriman Məmmədov Fikrət Qocanın "Gözlərinə mərhaba", "Özün barış", "Babam yandı", "Sən deyən olsun", "Anam odlar diyarım" və "Nə yaxşı ki, sən varsan" şeirlərinə mahnı bəstələmişdir. Bəstəkar hər bir mahnısını özünəməxsus üsulla yaradaraq dinləyicilərin ürəyini ovsunlamağa çalışmışdır:

**Sənə baxsam qaçırsan,**
**Dönüb getsəm baxırsan.**
**Yandırırsan-yaxırsan.**
**Daha baxan deyiləm,**
**Özün yan, özün alış.**

Və:

**İşıqlar sayrışar,**
**Üfüqləri pərişan**
**Nəğmələrlə danışar,**
**A mənim bəxtiyarım,**
**Anam odlu diyarım.**

Bəstəkar Akşin Əlizadə şairin "Bahar nəfəsli" və "Cavan qalaq" şeirlərinə musiqi bəstələmişdir. Hər iki mahnı yeni uğura aparan yol kimi diqqəti özünə çəkir:

**Mən qəlbimdən yol açan,**
**Bir arzu kimi gəncəm.**
**Bir dil açan körpənin,**
**İlk sözü kimi gəncəm.**

Ruhəngiz Qasımova Fikrət Qoca poeziyasına ən geniş müraciət etmiş bəstəkarlarımızdandır. O, şairin otuz bir şeirinə və eləcə də "Ömrün yolları" pyesinə ("Romans" və "Bu dərdi emək ağır") mahnıları yazmışdır. Ümumiyyətlə, Ruhəngiz xanımın bu mahnılarında yeni ruh, yeni kolorit dinləyicini özünə dərindən bağlaya bilir.

**Səhər-səhər dan sökülür,**
**Nə gəlib yenə ağlına,**
**Ləçəyin şeh süzülür,**
**Ağlama, gülüm, ağlama.**

Və:

**Dağlar, düzlər allı-güllü,**
**Şəlalələr şirin dilli.**
**Qara gözlü, ipək telli.**
**Anam sənsən, Azərbaycan.**

Və:

**Ay ana, dostum evlənir,**
**Bir gözəl çiçək dərib.**
**Anacan mənim də gözüm**
**Qonşuda bir çiçək görüb.**

Və:

**Sənə utancaq dedim,**
**Mənə küsəyən dedin.**
**Arada çox söz olar,**
**Ürəyimə bax dedin.**

Oqtay Kazımov Fikrət Qocanın "Qağayı", "Bizim mavi dünyamız", "Qaytar eşqimi", "Nə yaxşı ki, görüşdük", "Mənim gözəl Vətənim", "Ey xəyal", "Ey vəfasız" və "Bizim nəğmələr" şeirlərinə musiqi bəstələmişdir. Bəstələnmiş hər bir mahnıda bəstəkar ürəyinin hərarətli döyüntüləri şair poeziyasının ruhuna uyğun cilvələnərək müxtəlif rənglərə boyanmışdır:

**Ver mənim eşqimi,**
**O sənə heç gərək deyil,**
**Gəl qaytar eşqimi,**
**O solğun bir çiçək deyil.**

Və:

**Bahara bənzər,**
**Çölləri bəzər.**
**Bizim nəğmələr**
**Elləri gəzər.**

Mahnıları dillərdə dolaşan Firəngiz Babayeva Fikrət Qocanın "Töhfə", "Könlüm", "Gül açıb", "Göylər mavi nəğmədir", "Gecə yaman uzundur", "Dəcəl ürəyim", "Ürəklə oynamazlar", "Ülvi məhəbbət" və "Gəl, səhərim" şeirlərinə mahnı yazmışdır.

**Gözümün işığına**
**Hər kiprik bir yük olur,**
**Gecə yaman uzundur.**
**Bəzən bir ömürdən də**
**Bir gecə böyük olur,**
**Gecə yaman uzundur.**

Və:

**Gəl, səhərim, səhərim,**
**Gəldim sənə bağlı.**
**Gəl oyansın səhərim,**
**Nəğməli, vüqarlı.**

Vaqif Mustafazadə "Yollar", Asiya Sultanova "Bakım mənim eşqim" və Rafiq Babayev isə "Gəlirdi insan" şeirlərinə musiqi bəstələmişlər.

**İlk eşqim,**
**Son sözüm,**
**Sevən sevilən Bakım.**
**Ay canım,**
**Ay gözüm,**
**Bir mələksən sən, Bakım.**

Və:

**Torpağın insana,**
**Ümidi, inamı.**
**Odlardan yoğurdu,**
**Yaratdı insanı.**

Tofiq Əhmədov yaradıcılığında Fikrət Qoca poeziyası mühüm yer tutur. Bəstəkar onun "Radio dalğaları", "Xoşbəxt qadın", "Bayrama gəlib", "Görəm, nələr düşünürsən" və "Sevinc işıqları" şeirlərinə musiqi yazmışdır.



**Al-əlvan geyinib doğma diyarım,**
**İşıqlar, nəğmələr düşüb yollara.**
**Sənin bayramındı, mənim baharım,**
**Nə gözəl yaraşır bu gün yar yara.**

Mehriban Əhmədovanın bəstələdiyi musiqilər içərisində Fikrət Qoca şeirlərinə yazılmışları daha əsaslı yerlərdən birini tutur. Bu mahnılar bir-birindən dəyərli, gözəl, ürəklər oxşayan və təbii xüsusiyyətlərinə görə cazibədarlığı ilə seçilir. Həmin mahnılardan "İllər keçir", "Səni gördüm", "Ürəyim zərif güldür", "Dağlarda günəş gəzər", "İnanıram", "Sərhədçilər", "Oturduq yanaşı, susduq yanaşı", "Ata", "Anam Azərbaycan" və sairlərin adını məhəbbətlə çəkmək olar:

**İstər tufanlar olsun,**
**Şaxta, boran, qar olsun**
**Sərhədçilər var olsun,**
**Göz qırpmaz keşikçilər.**

Və:

**Azərbaycan, anam sənsən,**
**Eşqim, şöhrət, şanım sənsən.**
**Ruhum, canım, qanım sənsən,**
**Odlar yurdu, Azərbaycan.**

Fikrət Qocanın şeirlərinə Hökumə Nəcəfova "Şəlalə" və "Gəlirəm", Tahir Əkbər isə "Vətənə qayıdanda", "Bəlkə sənsən taleyim", "Eşqinlə odlandım", "Bir az sükut oxusun" və "Xəzəllərin rəqsi" mahnılarını yazmışlar. Hər iki bəstəkar şairin poeziyası üçün xarakterik cəhətlərə önəm verərək maraqlı mahnılar yaratmışdılar:

**Zirvələrdən qıy çəkər**
**Boz sular, büllur sular.**
**Hər damla zümrüd dənə,**
**Nur çiləyər, asılar sal qayadan.**
**Damcılar yana-yana**
**Bürünə boz dumana.**

***

**Çıx yoluma, qarşıla,**
**Mən gecikdim, bağışla,**
**Kövrək olur baxışlar**
**Vətənə qayıdanda.**

Və:

**Yadındamı o çağlar?**
**Söndü odlar, ocaqlar.**
**Bizim görüş yerində**
**İndi bir bulaq ağlar.**

Ramiz Mustafayev ("Bu çayın çınğılı"), Oqtay Rəcəbov ("Qızlar yollara çıxır"), Azər Dadaşov ("Körpə güllərik", "Mənim də pasportum var", "Ölkənin fəhləsi", "Nadiya"), Əzizə Mustafazadə ("Bir dünyayam"), Əziz Əzizov ("Axtaran tapar", "Mənim yolum"), Aydın Ağasıyev ("Payız"), Rizvan Ələsgərov ("Məcnun gəzər Leylini"), Elza İbrahimova ("Bağçadan keçmişəm"), Niyaməddin Musayev ("Ata") və Fuad Qədimov ("Dağlar") Fikrət Qocanın şeirlərinə musiqi bəstələmişlər:

**Çiçək kimi tərtəmiz**
**Qızlar yollara çıxır.**
**Şaxtalardan közərib,**
**Qızlar yollara çıxıb.**

Və:

**Nə gözəldi dünyamız,**
**Əziz anamız.,**
**Bəxtəvər balayıq biz,**
**Gülür üzümüz.**

Və:

**Bu ellərin**
**Olmuşam başına pərvanə,**
**Bu çöllərin bir doğma gülüyəm,**
**Doğmadır,**
**Candan əzizdir bir telin.**

Və:

**Əs, ey külək, külək, əs,**
**Bir şən nəğmə gətir, gəl.**
**Bol məhsullu bir payızı**
**Al qoynuna, götür, gəl, ey külək.**

Və yaxud:

**Sən gedən yollara qurban kəsərdim,**
**Şərəfim, şöhrətim, vüqarım, ata.**
**Nanə yarpağı tək tir-tir əsərdim,**
**Qoy xəzan görməsin baharın, ata.**

Bəstəkarlar Sevil Əliyeva ("Məcnuna Leyli kimi", "Ana" və "Sənsiz"), Rauf Əliyev (Oda - "Azadlığa gedən yollar"), Taleh Hacıyev ("Nəğmələr deyək"), Yeganə Axundova ("II Məhəbbət"), Rəna Qədimova ("Küləklər"), Kəmalə Heybət qızı ("Heydər Əliyev haqqında oda. Ulu Heydər"), Bəxtiyar Kərimov ("Ana"), Rəşad Həşimov ("Yaşa, prezidentim, yaşa"), M.İbrahimov ("Gəlinlər ana olanda"), Tofiq Əhməd ("Səni gördüm"), A.Mirzəyev ("Niyə gəlmədin?"), Emin Əfəndizadə ("Mənim Vətənim") və Həcər Rəhimova ("Sonuncu nəğməmiz") Fikrət Qocanın şeirlərinə mahnılar yazmışlar. Bu mahnıların hər biri ayrılıqda öz şirinliyi və məna tutumuna görə fəzada uzaqdan görünən işığa bənzəyir.

**Əziz anam, şirin sözlü anam,**
**Qəlbin kövrək, eşqin solmaz bahar.**
**Gülər üzlü, qara qözlü anam,**
**Hara getsəm gözün mənə baxar,**
**Ana qəlbin layla olar, gəzər.**
**Doğma səsin ömür-günü bəzər.**

Və:

**Arzum yandı,**
**külə döndü,**
**Aylar keçdi,**
**ilə döndü.**
**Sinəmdə düşmən gülləsi**
**əritdim,**
**Qanım qərənfilə döndü.**

Və:

**Hər yan bəzəndi, tez gəlin,**
**Süfrə gözəldi, tez gəlin.**
**Gəlin bizim məclisə,**
**Gəlin duraq üz-üzə,**
**Şirin nəğmələr deyək.**

(ardı növbəti sayımızda)

**Sabir Rüstəmoğlu (Məmmədov),**
**ADPU-nun Ağcabədi filialının dosenti,**
**AYB və AJB-nın üzvü**